# ÖVLAD SEVGİSİ

*Tərtib edən:* ***ƏLİXAN MUSAYEV***

*Ərəb dilindən tərcümə edən:* ***AYDIN SALEHLİ***

*İxtisas redaktoru:* ***MÜBARİZ QARAYEV***

*Redaktor:* ***SƏFƏRBƏY SƏFƏRBƏYOV***

**Bu kitab Azərbaycan Respublikası**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin**
**razılığı ilə çap edilmişdir.**

(DK-224/B 03.06.2011)

İnsan həyatında, yaşayışında çox mühüm və daha da geniş diqqət tələb edən məsələlərdən biri də ailə həyatıdır - desək yəqin ki, fikrimizə etiraz edən olmaz. Ailə həm şəxsi həyatımızın, həm də cəmiyyətin vacib bir institudursa, bu ailənin təməlini möhkəmləndirən əsas amillərdən biri də övladların dünyaya gəlməsi və onların tərbiyəsidir. İslam dini insanın sosial və mənəvi həyatının ən xırda detallarına belə müdaxilə edib öz əvəzsiz məsləhətləri, caizləri və yasaqları ilə həyatımızı nurlandırmışsa, şübhə yoxdur ki, belə bir vacib amil də diqqətdən kənar qalmamışdır. Ailə həyatında həyat yoldaşı – evin xanımı və onun ailədəki rolu çox böyükdür. Bu barədə Uca Allah Qurani Kərimdə belə buyurur:

**"Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır."**[1]

Əziz Peyğəmbərimiz ﷺ də bu məsələyə ciddi fikir verər və səhabələri ailə qurmağa təşviq edər və ailə daxilində qadın-kişi münasibətlərinə də mütləq vaxt ayırmağı tövsiyə edərdi. Bu tövsiyələri ilə yanaşı hətta ibadət məsələlərində ifrata varıb həyat yoldaşları ilə yaxınlığı belə tərk edənləri məzəmmət edərdi. Sabit bir hədisdə Ənəs ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bizə nikah bağlamağı əmr edər, şəhvəti ibadət naminə tərk etməyi isə qəti qadağan edərək deyərdi: **"Çox sevən və**

[1] "ər-Rum", 21.

**çox uşaq doğan qadınlarla evlənin. Qiyamət günü mən sizin çoxluğunuzla peyğəmbərlərdən üstün olacağam."**[1]

Hədisin mətnindəki "sizin çoxluğunuzla" ifadəsi o deməkdir ki, yəni sizin sayınız sizdən öncəki ümmətlərin sayından çox olacaqdır deyə mən onlardan həm də ümmətimin çoxluğu ilə üstün olacağam. Bu da təbii ki, ümmətin kişilərinin çox sevən və çox uşaq dünyaya gətirən qadınlarla evlənməsi sayəsində baş verəcəkdir. Burada qadınlarla bağlı iki amilə diqqət edək: Biri qadının ərini çox sevməsi, digəri isə sevdiyi kişidən dünyaya çoxlu uşaqlar gətirmək istəməsi – bunların hər ikisi önəmlidir. Bu məsələ həm kişinin sevgisinin qazanılması və həm də ümmətin çoxalması baxımından əhəmiyyət kəsb edir. Deməli əgər qadın həyat yoldaşını çox sevərsə, lakin bununla belə uşaq dünyaya gətirmək istəyində və ya iqtidarında deyilsə o zaman o özünü həm kişinin sevgisinin lazımınca qazanılmasından, həm də ümmətin çoxalması kimi savab əməldə öz əməyinin olmasından məhrum edir. Həmçinin çox doğan qadın həyat yoldaşına sevgi bəsləmədikdə də bunun heç bir faydası olmur. Belə ki, çoxuşaqlılıq qarşılıqlı sevgi olmadan lazımi effekt verməyəcəkdir.

Şəhvəti tərk etmək deyildikdə isə qadınları tərk etmək, ibadətləri çoxaltmaq məqsədilə cinsi yaxınlıqdan imtina etmək  nəzərdə tutulur. Gəlin hədisdəki ərəbcə

---

[1] Hədisi Əhməd, ət-Təbərani həsən isnadla rəvayət etmiş, İbn Hibban isə səhih olaraq rəvayət etmişlər. Bu hədisi gücləndirən digər rəvayətlər də vardır.

olan sözlərin ayrı-ayrılıqda mənalarına fikir verək: Hədisdəki “əl-bətl” sözünün lüğəti mənası kəsmək, imtina etmək deməkdir. “Məryəm əl-bətul” ifadəsinin mənası da bunu bildirir və kişilərdən imtina etmiş sözü də bundan əmələ gəlmişdir. Fatimədən rəvayət olunur ki, Məryəm öz dövrünün qadınlarından din, fəzilət və Axirətə sevgi baxımından fərqləndiyinə görə belə adlandırılmışdı. Hədisdəki “əl-vəlud” sözünün mənası isə çox uşaq dünyaya gətirən deməkdir. Qızın bu xüsusiyyətlərə malik olub-olmaması onun qohumlarından və nəsil-nəcabətindən bəlli olur. Hədisdəki “əl-vədud” sözünün mənası isə gözəl xüsusiyyətlərinə, yaxşı əxlaqına və ərinə qarşı bəslədiyi sevgisinə görə sevilən mənasındadır. Hədisdəki “mukasəra” sözünə gəlincə, onun mənası çoxluqla fəxr etmək deməkdir. Hədisdə mənaya görə "çoxluqla fəxr" dünya həyatında deyil, Axirət yurdunda olmalıdır. Dünya həyatında çoxluqla fəxr caiz deyildir. Yəni Peyğəmbərimizin ﷺ ümmətinin sayı çox olduğundan, onun əldə etdiyi savablar da daha çox olacaqdır. Çünki ona tabe olanların savabı kimi ona da savab yazılır.[1]

Digər İslam alimləri də bu hədisə şərh vermişlər və onların da şərhləri yuxarıdakı şərhlərlə məna baxımından çox yaxındır. Məsələn, Şəmsuddin Abadi demişdir: “əl-vədud” yəni ərini sevən, “əl-vəlud” yəni çox övlad dünyaya gətirən mənasını bildirir. Çünki çox övlad dünyaya gətirən qadın ərinə qarşı sevgi hissləri bəslə-

[1] Subul əs-sələm 4/429.

mirsə əri onu bəyənməyəcək. Həmçinin ərini sevən qadın uşaq dünyaya gətirmək təqdirində deyilsə yenə də məqsəd hasil olmur. Məqsəd də çox uşaq dünyaya gətirməklə ümmətin sayını çoxaltmaqdır. Bunu da yalnız qızın yaxınlarından bilmək mümkündür. Çünki əksər hallarda yaxınlarının malik olduqları xüsusiyyətlər qıza da keçmiş olur.

İslam bəzi əməlləri halal buyurmaqla yanaşı həm də həyata keçirilməsinə imkan olan kimi bunu təkid də edir. Bu həmin əməlin çox böyük faydaları ilə izah oluna bilər. Nikahın və çoxlu uşaq dünyaya gətirmənin hikmət və faydalarına nəzər yetirək:

1 – Həyat yoldaşı bir sükunətdir.

Uca Allah buyurur: **"Ondan da rahatlıq tapması üçün yoldaşını yaratdı."**[1]

Təbəri bu ayənin şərhində demişdir: Yəni onunla rahatlanıb ehtiyacını və şəhvətini ödəsin deyə. İbn Kəsir isə belə demişdir: Yəni onunla birləşib rahatlansın deyə.

2 – İnsanların artımı buna bağlıdır:

Məqəl ibn Yəsar demişdir: Bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: Əsilli-nəsilli və gözəl bir qadına rast gəlmişəm, lakin onun uşağı olmur, onunla evlənimmi? O: "Yox" – deyə cavab verdi. Sonra ikinci və üçüncü bir adam da onun yanına gəldikdə o buyurdu: **"Sevən və çox uşaq dünyaya gətirən qadınlarla evlənin. Mən sizin digər ümmətlərdən çoxluğunuzla fəxr edəcəyəm."**

[1] "əl-Əraf", 189.

Mənavi demişdir: "Bu hədis uşaqların sayını artırmağa təşviq edir və uşağın olmasının qarşısını almaq cəhdlərini qadağan edir və bunu pisləyir. Odur ki gərək insan şəriətin məqsədlərinə riayət etsin və nəfsinin istəklərinə qalib gəlsin."

Bu hədisin hikmətini indiki dövrümüzdə lap yaxşı başa düşmək mümkündür. Gəlin adi bir misala baxaq: Əgər bir cütlük ailə qurursa bu iki nəfərin birləşməsi deməkdir və onlar sadəcə bir uşaq dünyaya gətirməklə kifayətlənərlərsə və bu cəmiyyətdə adət halına keçərsə, deməli bəlli bir zamandan sonra həmin ümmət çox kəskin şəkildə azalacaq və yox olmaq səviyyəsinə qədər gələcəkdir. İki nəfər bir nəfəri dünyaya gətirərsə, ümmətin, millətin artımı nəyin hesabına ola bilər ki? İki nəfərin nikahından hətta iki uşaq da dünyaya gələrsə yenə də bu itkinin qarşısını almaq mümkün olmayacaqdır. İki nəfərdən iki nəfər dünyaya gəlirsə, hansi artım ola bilər ki? Azalmanın faktiki səbəbini qeyd etdik. Deməli, real artımı nəzərə alsaq hər cütlüyün ən azı üç uşaq dünyaya gətirməsi lazımdır ki, ümmətin sayı artsın. Əks halda azalmanın qarşısını almaq mümkün olmayacaqdır. Bu isə cəmiyyətin qocalması, işçi qüvvəsinin və həm də dar ayaqda vətəni müdafiə edəcək qüvvələrin sayının azalması deməkdir. Bu gün Avropa ölkələri faktiki olaraq bu böhranı yaşamaqdadırlar və bu problem hələ ki, ölkəyə miqrasiya edənlərin hesabına həll edilməkdədir. Bu miqrantlar da daha çox müsəlmanlar olur deyə bu faktın özü bu hədisdəki faydanı və önəmini ortaya qoymaqdadır.

3 – Evlənmək insanın gözünün toxtaması və övrət yerini haramdan hifz etməsi üçün zəruridir. Abdullah ibn Məsuddan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qoy evlənməyə imkanı olan (hər kəs) evlənsin. Çünki evlilik, gözləri və cinsiyyət üzvünü (zinadan) qoruyan ən yaxşı (səbəbdir). İmkanı olmayanlar isə oruc tutsunlar. Çünki oruc (insanın) şəhvətini soyudur."**[1]

Sənani demişdir: "Bu hədis gözün toxtamasına və övrət yerinin qorunmasına səbəb olan evlənməyə təşviq edir."

Hədislərin birində Peyğəmbər ﷺ demişdir: **"Ən xeyirli qadınlarınız Allahdan qorxduqları təqdirdə *ərlərini* sevən, çox uşaq dünyaya gətirmək əzmində olan, ərinə itaət edən və üzüyola olanınızdır. Ən pis qadınlarınız isə açıq-saçıq geyinən və forslananlardır, belələri münafiqlərdir. Onlardan yalnız ala qarğaya bənzəyənləri Cənnətə girəcəklər."**[2]

Ala qarğa qanadları ağ olandır. Bəziləri isə ayaqları ağ olandır. Bəziləri isə dimdiyi və ayaqları qırmızı olan qarğaların olduğunu demişlər. Bu cür təsvir olunan qarğalara çox az hallarda təsadüf olunur deyə hədis məhz onların misalı ilə müqayisə aparır. Bu ifadə qadınların çox az bir qisminin Cənnətə daxil olacaqlarına işarədir. Səbəb də onların əksəriyyətinin bu xüsusiyyətlərə malik olmalarıdır. Allah həm bizləri, həm də onları Cəhənnəm odundan qorusun. Qadın açıq-saçıqlığı bu ri-

---

[1] Səhih əl-Buxari, 1905.
[2] Sünən əl-Beyhəqi, 7/82; Səhih Hədislər Silsiləsi, 1849.

salənin mövzusu olmasa da bütün xanımlarımızı Allahı qəzəbləndirən bu əməldən çəkinməyə çağırırıq.

Əməlisaleh övladların çoxluğu axirətdə gözəl məqamı qazanmaq baxımından da insan üçün faydalıdır. Peyğəmbər ﷺ buyurmuşdur: **"İnsan öldükdə onun əməlləri də tamamlanır. Yalnız üçündən başqa: Davamlı sədəqə, faydalı elm və dua edən saleh övlad."**[1]

Ümumiyyətlə çoxluq bir izzətdir və bunu Uca Allah İsrail oğulları barəsində xüsusi olaraq qeyd etmişdir: O buyurur: **"Sizin sayınızı da çox etdik."**[2]

Şüeyb öz qövmünə bunu xatırladaraq demişdi: **"Yadınıza salın ki, bir vaxt siz az idiniz *Allah* sizi çoxaltdı."**[3]

Ayələrə baxdıqda çoxluğun bir nemət olduğu məlum olur. Bir ümmətin çoxluğu bir güc sayılır. Ələlxüsus da əgər onların torpaqları əkin-biçin və sənaye üçün yararlıdırsa, ölkənin iqtisadiyyatının inkişafı Allahın bəxş etdiyi resurslar və ehtiyatlar baxımından zəngindirsə, bu insan çoxluğu bir izzətdir. Həmin torpaqlarda sənaye və digər işlər üçün münbit şərait olur. Allaha and olsun ki, bir ümmətin sayının çox olması heç də yoxsulluğa və işsizliyə səbəb deyil. Bunu düşünən insanlar necə də yanılırlar. Xeyir-bərəkət bütünlüklə Allahın iznindədir.

Əfsuslar olsun ki, indi bəziləri uşaq tərbiyəsi və onların qayğısına qalma yolundakı çətinliklərdən qorxa-

---

[1] Ədəb əl-Mufrəd, 38.

[2] "əl-İsra", 6.

[3] "əl-Əraf", 86.

raq sonsuz olma ehtimalı olan qadınlara daha çox üstünlük verir və həmin qadına uşaq doğan qadından daha çox diqqət yetirir. Elə hallar da olur ki, ailələrdə tərəflər çalışırlar ki, həyat yoldaşları üç-dörd ildən sonra uşaq dünyaya gətirsin. Bu da səhvdir. Çünki bu, Peyğəmbərin ﷺ muradına ziddir. Bəzən deyirlər ki, uşaqlara tərbiyə vermək çətindir. Belələrinə deyirik ki, əgər Allah barəsində yaxşı zəndə olsanız, O, sizə yardım edər. Bir çox hallarda uşaq çoxluğundan imtina maddi imkanın aşağı olması ilə əlaqələndirilir və arqument kimi də maddi imkanımız buna imkan vermir – söylənilir. Onlara Quran ayəsi ilə cavab verərək deyirik: **“Yer üzərində elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin.”**[1]

Amma təcrübəyə nəzər salsaq görərik ki, bir çox hallarda elə olur ki, övladı olan kimsənin ruzisi artır. Etibar etdiyim birisindən eşitmişəm ki, o deyirdi: Ailə həyatı qurduqdan sonra Allah mənə ruzi qapısı açdı, filan oğlum dünyaya gəldikdən sonra isə Allah mənə başqa bir ruzi qapısı açdı. Bu bəlli məsələdir. Çünki Allah buyurur: **“Yer üzərində elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin.”** Həmçinin buyurur: **“Yoxsulluqdan qorxaraq övladlarınızı öldürməyin, onların da, sizin də ruzinizi verən Bizik.”**[2] Həmçinin buyurur: **“Əgər kasıb olsanız Allah Öz fəzilətilə sizi varlandırar.”**[3]

---

[1] “Hud”, 6.
[2] “əl-Ənam”, 151.
[3] “ən-Nur”, 32.

Nəticə etibarı ilə bəlli olur ki, uşağın ailənin yoxsulluğuna səbəb olması bəhanəsi əsassızdır.

Ola bilər ki, kimsə uşaq çoxluğundan imtina etməsinə başqa səbəb gətirsin. Məsələn desin ki: İstəyirəm, zövcəm cavan qalsın və uşaq doğmasın. O zaman deyərik ki, bu məqsəddə bir müşküllük yoxdur. Lakin uşaq dünyaya gətirmək və onların sayını çoxaltmaq daha əfzəldir.[1]

Cəmiyyətdə tez-tez rastlaşdığımız neqativ hallardan biri də ailədə qız uşağının dünyaya gəlməsinin bir təəssüf və kədər hissi ilə qarşılanmasıdır. Ən dəhşətlisi isə ananın qız uşağı dünyaya gətirəcəyini həkimlərin diaqnostik nəticələrinə görə müəyyən edən valideynin bu uşağı dünyaya gətirmədən öncə onun qətlə yetirilməsi və bətndən uzaqlaşdırılmasıdır. Bu əsl cinayətdir. İnsanın tüklərini ürpədəcək bir səhnə və qəlbləri sarsıdacaq bir görüntüdür. Qız uşağında olan fayda barəsində söylənən hədis oğlan uşaqları barəsində söylənilməmişdir – bunu bilməyənlər nə qədər xeyirdən özlərini məhrum etdiklərinin fərqində belə deyillər. Hədisi bir daha xatırladaq ki, bəlkə qəlbləri daşlaşmış insanların qəlbləri yumşaldı. Peyğəmbər ﷺ demişdir: **"Kimin üç qızı olsa, səbir edib onları böyütsə və malından onlara xərcləsə, o qızlar onu Oddan qoruyan bir sipər olar."**

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kimin üç qızı olsa, onlara qayğı göstərsə, onlara yaxşı baxsa və onlara rəhm etsə, Cənnətə daxil olmaq mütləq ona vacib olar."** Başqa tayfadan olan bir kişi dedi: "Ey

[1] Şərh əl–Mumti alə Zad əl–Mustəqnə, 12/16-17.

Allahın elçisi! İki qızı olana da?" O dedi: **"İki qızı olana da!"** Belə bir nemətdən necə imtina etmək olar? Kaş ki, insanların axirət nemətlərinə olan sevgisi dünya nemətlərinə olan sevgisindən çox olaydı.

Beləliklə aydın olur ki, ailə və övladların çoxluğu onların cinsindən asılı olmadan əvəzsiz bir nemətdir. Ailənin və övladların qayğısına qalmaq isə böyük bir savabdır. Övladlara qarşı rəhmli olmaq, onlara nəvaziş göstərmək möminin gözəl sifətlərindəndir. Peyğəmbərimiz ﷺ də bu cur rəhmli və ailəsinə qarşı çox qayğıkeş idi.

- Peyğəmbər ﷺ bu xüsusda belə demişdir: **"Özün nə yesən, sənin üçün sədəqədir. Övladına nə yedirtsən, o da sənin üçün sədəqədir. Zövcənə nə yedirtsən, o da sənin üçün sədəqədir. Xidmətçinə nə yedirtsən, o da sənin üçün sədəqədir."**

- Ənəs ibn Malik rəvayət edir ki, bir qadın Aişənin yanına gəldi. Aişə ona üç dənə xurma verdi. O, körpələrinin hərəsinə bir xurma verdi. Birini də özünə saxladı. Körpələr xurmaları yedikdən sonra analarının üzünə baxdılar. Anaları (saxladığı) bir xurmanı iki yerə bölüb hər birinə xurmanın bir yarısını verdi. Peyğəmbər ﷺ gəldikdə Aişə ona bu haqda xəbər verdi. O dedi: **"Səni təəccübləndirən nədir? O körpələrinə rəhm etdiyinə görə, Allah da ona rəhm etdi."**

- Aişə rəvayət edir ki, bir bədəvi ərəb Peyğəmbərin ﷺ yanında ikən dedi: "Siz uşaqlarınızı öpürsünüz?! Biz onları öpmürük!" Peyğəmbər ﷺ dedi: **"Əgər Allah sənin qəlbindən mərhəmət hissini götürübsə, ona mən nə edim?!"**

- Əbu Hureyra rəvayət edir ki, Peyğəmbər ﷺ Həsən ibn Əlini öpdü. Bu vaxt Əqra ibn Habis onun yanında oturmuşdu. Əqra dedi: "Mənim on övladım var, onlardan heç birini öpməmişəm." Peyğəmbər ﷺ ona baxıb dedi: **"Rəhm etməyən kimsəyə rəhm edilməz."**

- Əbu Hureyra rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: **"Qüdrətli və əzəmətli Allah rəhməti yüz hissə etdi. Doxsan doqquzunu Özündə saxlayıb bir hissəsini yer üzünə endirdi. Məhz bunun sayəsində yaradılanlar bir-birinə rəhm edir. Hətta at öz balasını tapdalamasın deyə ayaqlarını yuxarı qaldırır."**

Bu misallar Peyğəmbərin ﷺ əxlaqının necə olmasına çox gözəl dəlillərdir. Ona görə də Peyğəmbərin ﷺ ətrafında olan səhabələr də belə gözəl əxlaqdan nümunə götürmüş, ailənin qayğısı onları beləcə maraqlandırmış və ailədə uşaqların çoxluğu onları qorxutmamışdır.

Tarixdə dahi şəxsiyyətlərin ailədə uşaq artımına olan münasibəti də maraqlıdır. Ömər ﵁ məhz dünyaya övlad gətirmək və zürriyyətini artırmaq niyyəti ilə evlənərdi.

## Mühüm məsələlər:

Ailə qurmadan öncə diqqət yetirilməsi vacib olan bəzi məsələləri qeyd edək:

## Əməlisaleh zövcə seçmək:

Bu məsələlərin ən mühümü, uşaqları dünyaya gətirəcək, onlara tərbiyə verəcək və bu amalı ən yüksək səviyyədə həyata keçirməyi bacaracaq mömin bir ananı

seçməkdir. Peyğəmbər ﷺ evlənmək istəyən kişilərə nəsihət verərkən onlara qadınlardan gözəlliyinə, mal-dövlətinə, əsil-nəsəbinə və dininə görə evlənməyin gərək olduğunu bildirdikdən sonra belə buyurmuşdur: **"Çalış dindar olanı seç yoxsa yazıq olarsan."**[1]

## Toy qonaqlığına tədarük və onun şəri qaydaları:

Toy edən kəs gərək verdiyi yeməklərdə və içəcəklərdə israfçılığa yol verməsin. Bununla bərabər gərək o, Rəbbini qəzəbləndirəcək hər bir haram əməldən də çəkinsin. Çünki hər bir uğurun və səadətin əsası Allahın razılığını qazanmaqdır. Toy da ailə həyatının tam başlanğıcıdır. Təməli haramla qoymaq isə sadəcə Allahın qəzəbini artırar. Təəssüf ki, çoxları buna hələ də riayət etməyir.

## Qadınla yaxınlıq etməyə dair gözəl tövsiyələr:

Müstəhəbdir ki, kişi toy gecəsi qadını ilə yaxınlıq etməzdən öncə əlini xanımının alnına qoyaraq Allaha dua etsin və onun xeyrini diləsin və onunla iki rükət namaz qılsın.

İbn Abbas rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Bilin ki, əgər biriniz xanımı ilə yaxınlıq etməzdən əvvəl: "Bismillah, Allahummə, cənnibniş-şeytanə və cənnibiş-şeytanə mə razəqtənə!"[2]– desə və əgər onların qismətində varsa, yaxud Allah onların qədərinə övlad**

---

[1] Səhih əl-Buxari, 5090.

[2] Tərcüməsi: Allahın adı ilə! Allahım, məni şeytandan uzaqlaşdır, şeytanı da bizə bəxş etdiyin övladdan uzaqlaşdır!

**yazmışdırsa, şeytan o uşağa heç vaxt zərər toxundura bilməz."**[1]

İmam Dəvadi bu hədisin izahında demişdir: "Burada zərər verməz deyildikdə onu dinindən azdırıb küfrə salmaz başa düşülür. Yoxsa elə başa düşülmür ki, həmin uşaq məsum, günahsız olar. Bu olduqca asan məsələdir, "bismillah" deyən kəsin övladının əməlisaleh və alim olması ehtimalı daha çoxdur. Hətta alimlər deyirlər ki: bu o demək deyil ki, uşaq günahsız olacaqdır. Lakin şeytan onu küfrə apara bilməyəcək. Bu da yalnız ər öz arvadı ilə yaxınlıq etməzdən öncə məlun şeytanın şərindən Allaha sığındıqda olur. Hamınıza məlumdur ki, insan evə daxil olub salam vermədikdə şeytan yanındakılarına müraciət edərək deyir: "Bu gecə qalmağa yerimiz var." Həmin gecə də bir sıra problemlər baş verir. İnsan yemək yeməzdən öncə də "bismillah" demədikdə yenə şeytan yanındakılarına deyir: Yeməyimiz var. Yəni bu gecə həm yatmağa yerimiz, həm də yeməyimiz var. Xülasə Peyğəmbərin ﷺ göstərişinin məğzi ondan ibarətdir ki, insan evə daxil olduqda, yemək yedikdə bismillah deməlidir ki, şeytan ona yaxın gələ bilməsin.

## <u>Övlad istəməyə təşviq:</u>

Peyğəmbər ﷺ demişdir: **"Ərini sevən və çox uşaq dünyaya gətirən qadınlarla evlənin, mən sizin çoxluğunuzla digər ümmətlərdən üstün olacağam."** Dinimiz insanlara övlad çoxluğunun faydasını izah etdiyi

[1] Səhih əl-Buxari, 5165.

kimi, Allahın izni ilə övlad itkisinin ağrısına da necə səbir etməyi öyrədir. İnsan övladını itirərsə, bunu Allahın yazmış olduğu qədəri kimi qəbul etməli və buna səbir etməyi də bacarmalıdır. Bu səbrə görə isə mütləq mükafat vardır. Peyğəmbər ﷺ demişdir: **"Hər hansı bir müsəlman həddi-buluğa çatmamış üç övladını itirərsə Allah həmin kəsi onlara olan rəhmi sayəsində Cənnətə daxil edər."**

## Uşağın dodaqlarına xurma sürtmək:

Əsma bint Əbu Bəkr, Abdullah ibn Zubeyrə hamilə olduğu vaxtı xatırlayıb demişdir: "Mən hamiləliyin son ayında (Məkkədən) çıxıb Mədinəyə gəldim və Qubada qonaq qaldım. Elə orada da övladımı dünyaya gətirdim. Sonra uşağı Peyğəmbərin ﷺ yanına gətirdim və onu Peyğəmbərin ﷺ qucağına qoydum. Peyğəmbər ﷺ bir xurma gətizdirdi, sonra onu ağzında əzdi və (bu əzməni) uşağın ağzına qoydu. Beləliklə də, bu körpənin mədəsinə gedən ilk şey, Peyğəmbərin ﷺ ağız suyu oldu. Sonra Peyğəmbər ﷺ xurma əziyini körpənin damağına sürtdü və onun üçün dua edib Allahdan xeyir-bərəkət dilədi. Beləcə, o, İslamda doğulmuş ilk körpə oldu."[1]

## Süd əmizdirmə:

Uca və nöqsansız olan Allah Öz Kitabında buyurur: **"Analar öz övladlarını tam iki il əmizdirsinlər. *Bu,* əmizdirməni tamamlamaq istəyənlər üçündür."**[2]

---

[1] Səhih əl-Buxari, 5469.
[2] "əl-Bəqərə", 233.

Bu da Uca Allah tərəfindən bir tövsiyədir ki, döşlərində südü olan analar övladlarını əmizdirsinlər . Düşünürəm ki, körpənin ana südü ilə qidalanmasının faydasının izahına ehtiyac yoxdur.

**<u>Uşağa gözəl ad vermək barədə:</u>**

Dövrümüz üçün ən aktual olan məsələlərdən biri də uşağa verilən adla bağlıdır. Çox zaman cəmiyyətdə mənası bilinməyən və ya mənasında küfr və Allaha üsyan olan adlara rast gəlirik. Nəzərə almalıyıq ki, övladlarımıza elə adlar qoymalıyıq ki, o, axirət həyatında bu ad ilə çağırılarkən bu addan qürur duysun. Uşaq ona verilən ad və ya ləqəbdən dünya həyatında da təsirlənir. İbn Qeyyim bildirmişdir ki, adla adlandırılan şəxs arasında bir bağlılıq mövcuddur və adlar insanlar üzərində təsirə malikdirlər. Peyğəmbər ﷺ uşaqlara gözəl adlar seçilməsini əmr edərək demişdir: **"Uşağı olan kəs onun adını və tərbiyəsini gözəl versin."**

**<u>Əqiq (övladın dünyaya gəlməsi münasibətilə qoç kəsmək):</u>**

Əksər alimlərə görə bu təkid olunmuş sünnədir: Peyğəmbər ﷺ demişdir: **"Oğlan uşağı olduqda iki qoyun, qız olduqda isə bir qoyun kəsmək lazımdır."**

**<u>Uşağın saçını qırxmaq:</u>**

Uşağın saçını ülgüclə qırxmaq sünnədir. Bunu da uşaq dünyaya gələndən yeddi gün sonra etmək lazımdır. Sonra uşağın saçının ağırlığında qızıl və ya gümüş sədəqə verilməlidir. Bu barədə varid olan hədisdə deyi-

lir ki, Peyğəmbər ﷺ xanım Fatimənin uşağı dünyaya gəldikdə ona belə demişdir: **“Oğlun Hüseynin saçını çək və onun ağırlığında gümüş sədəqə ver.”**

## Sünnət olunma:

Müsəlmanlarda və yəhudilərdə oğlan uşaqlarının kişilik əzasının dəri hissəsinin kəsilməsindən ibarət əməliyyata sünnət deyilir.

## Övlad tərbiyəsi ilə bağlı məsləhətlər:

Övlad tərbiyəsinin önəmini, çətinliyini və məsuliyyətini nəzərə alaraq aşağıdakı tövsiyələri də nəzərinizə çatdırırıq ki, bununla məlumatlarınızı zənginləşdirmiş olasınız:

1 – İslamda övlad tərbiyəsi məsələsi Allahın Kitabı və Peyğəmbərinin ﷺ sünnəsinə bağlıdır.

2 – Bütün enerji, mal-dövlət və vaxt əsasən övlad tərbiyəsi üçün səfərbər olunmalıdır.

3 – Uşaqlara düzgün tərbiyə vermək elm və əməllə bağlıdır, təqlid və xarakterlə olmamalıdır.

4 – Övlada düzgün tərbiyə vermək tam şəkildə olmalıdır. Çünki bu həm ruha, həm ağıla, həm də bədənə təsir edir. Odur ki, tərbiyə həmişə seçilən və fərqli olmalıdır.

5 – Əgər övladlarının tərbiyəsindən xoşlanmaq istəyirsənsə, o zaman onları Allahın nəzarəti altında, riyakarlıqdan uzaq olaraq tərbiyə et.

6 – Yiyələndiyin dəyərli elm, etiqad və uşaqlığın mərhələləri haqqındakı biliklərin sənə Allahın izni ilə övlad tərbiyəsində çox kömək olacaqdır.

7 – Bu günün övladları sabahın gəncləridir və bu gün onların tərbiyəsi üçün sərf olunan hər bir şey sabah ümmətimizə kömək və onun izzətlənməsi üçün əvəzsizdir.

8 – Gərək biz övladlarımızı düşünməyə vadar edəcək məsələləri bilək, çünki müsbət düşüncə tərzi Allahın köməkliyi ilə gözəl əxlaqa gətirib çıxarır.

9 – Gərək biz əməli, onu edəndən ayıraq. Uşağı tənqid etdiyimiz zaman tənqidi onun özünə deyil, etdiyi əmələ yönəltməliyik.

10 – Uşaqların hisslərinə hörmət bəsləmək lazımdır. Çünki o gələcəyin şəxsiyyətidir. Onların hissləri bizimkindən fərqlidir.

11 – Çalış ki, övladlarına yalnız ən yaxşı və ən gözəl sözləri deyəsən. Bunun da əcrini Allahdan dilə.

12 – Oğlun sənə şikayət etdikdə və ya nədənsə sıxıldıqda ona qarşı diqqətli ol. Misal üçün o, öz müəlliminin onu incitdiyini dedikdə ona de ki, doğrudur bu üzücüdür, mən də sənin yerində olsaydım, mən də həmin vəziyyətdə olardım. Bu xoşagəlməz bir haldır və bu məsələyə baxacağam. Övladının halına həmşərik ol ki, o həmişə ürəyindəkiləri açıb sənə desin. Hətta bəzən onunla razılaşmadıqda belə ona qarşı biganə olmaqla onu özündən uzaqlaşdırma.

13 – Sənin övladların diqqətə, qayğıya, yumşaq rəftara, mərhəmətə, düzgünlüyə, ədalətə və ehtirama daha layiqdir.

14 – Övladlarını olduqları kimi qəbul etməlisən. Bundan sonra sən oxuyub elmini artırmaqla, habelə sual

verib məsləhət almaqla düzgün tərbiyə metodunu öyrənməlisən ki, sərt və biganə tərbiyə arasında orta mövqedə olasan.

15 – Uşaqlarının heysiyyatına önəm ver ki, onlar sənin qoyduğun sərhədləri keçməsinlər.

16 – Tələsmək tərbiyənin düşmənidir və yalnız səbir edənlər müvəffəqiyyət qazanırlar.

17 – Övladlarının hisslərini anlamağın, onlara hörmət bəsləyərək qəbul etməyin üçün dürüst metod və ifadələr seç.

18 – Valideynlər düzgün tərbiyə metodlarını öyrənib onları tətbiq etmək üçün bütün enerji, mal-dövlət və vaxtını sərf etməlidirlər.

19 – Övladlar istər miras, istərsə də digər məsələlərdə bir – birindən fərqlənirlər.  Yaxşı olar ki, onların hər birinin mülk və vəziyyətini müəyyən edəsən. Çünki onların hər birini fərqli üsulla müalicə etmək və bunun üçün də xüsusi mal, vaxt və güc sərf etmək lazımdır. Bil ki, öldükdən sonra sənin tərəzidəki savabını ağırlaşdıracaq övladlar çox olmur.

20 – Unutma ki, ifadələr, danışıq tərzi və mimikalar öz fikrini övladına çatdırmaq üçün əvəzsizdir.

21 – Övladlarını optimist və Allaha qarşı yaxşı zəndə olmaq ruhunda böyüt, çünki bu həyatı daha xoşbəxt, ləzzətli, rahat və sevincli edir.

22 – Gərək gərginliyə və qəzəbə son qoyasan və elə fikirləşməyəsən ki, sənin bu hirs və gərginliyin məqsədəuyğundur. Təsəvvür et ki, iki nəfər eyni hadisə ilə üzləşərək eyni halda olurlar. Biri bunu çox gərginliklə

qarşılayır, digəri isə bunu təbəssümlə normal olaraq qəbul edir. Nə üçün? Ola bilsin ki, qəzəbli şəxsin təfəkkür tərzi fərqli olsun. Odur ki, gərək bizi qəzəbləndirəcək hallarla qarşılaşdığımızda özümüzü toplayaq və halımızı düzəldək və qəzəbdən dolayı günümüzdə geniş vüsət almış şəkər və ya təzyiq xəstəliklərinə mübtəla olmayaq. Peyğəmbər ﷺ də yalnız Allahın qanunları tapdalandıqda hirslənərdi.

23 – Gərək tərbiyə zamanı, günahlandırmaq, ittiham etmək, söyüş söymək, təhdid etmək, xəbərdarlıqlar və istehzalara yol verilməsin. Unutma ki, əksər övladlar valideynlərinin ucbatından pozulurlar. Allah kömək olsun!

24 – Övladlarına qarşı hörmət bəslə və gözəl tərbiyə yollarını öyrən. Gərək özümüzə sual verək ki, görəsən bizim övladlarımıza verdiyimiz tərbiyə onlara verə biləcəyimiz ən yaxşı haldadırmı? Unutmamalıyıq ki, bizim bilmədiklərimiz bildiklərimizdən daha çoxdur.

25 – Çalış vaxtaşırı övladlarına qarşı bəslədiyin hissləri onlara çatdıraraq onları çox sevdiyini onlara bildirəsən. Bəzən hisslərdə simiclik mal–dövlətdə olan simiclikdən daha böyük olur.

26 – Səbəbləri aradan götürdükdən sonra tərbiyədə hər hansı bir uğursuzluq təbiidir. Növbəti cəhdlər zamanı bunu düzəldə bilərsən. Bəzən problem səbəblərin aradan qaldırılmamasında olur. Səbəblərin aradan götürülməsindən sonra hasil olan uğursuzluq normal sayılır.

27 – Yəqin ki, valideynlər öz ehtiyaclarının övladlarının ehtiyaclarından fərqləndiyini bilirlər. Çünki arada

yaş, bədən və nəfsi cəhətdən fərqlər vardır. Gərək biz həmin fərqləri dərk edərək özümüzün gərginlik hissləri keçirməməyimizə, övladlarımızın isə nəfsi rahatlıq tapmalarına nail olaq.

28 - Övlad tərbiyə etməyin bir çox metod və yolları vardır. Gərək seçib övladın üçün ən münasibini tətbiq edəsən.

29 – Uşaqların etdikləri səhvlər əsasən üç cəhətdən olur: -Birinci: Fikri.

İkinci: Əməli.

Üçüncü: Özündən

30 – Uşaqlarla oynamaq onlara sevinc bəxş edir və onları iş görməyə vadar edir.

31 – Ola bilsin ki, sənin övladlarının hisslərinə hörmət bəsləməyin onun da başqalarına hörmət bəsləməsinə səbəb olsun.

32 – Valideynlər övladlarını tərbiyə edərkən bir az sakit olmalıdırlar və bu da onlara daha çox düşünmək imkanı verir.

33 – Atalar övladlarına gələcəkdə verəcəkləri tərbiyəni əvvəlcədən planlaşdırmalıdırlar. Əgər belə etməsələr bu mühüm məsələdə uğursuzluğu planlaşdırmış olarlar.

34 – Ola bilsin ki, cəza tədbirləri uşaqda qəzəb və intiqam və bir sıra başqa mənfi hislər oyatmış olsun. Cəzanı yalnız bütün mümkün vasitələrdən sonra sonda istifadə etmək olar. Bu zaman da gərək cəzanın qaydalarını biləsən.

35 – Övladının müsbət cəhətlərini büruzə ver. Çalış ki, onun mənfi cəhətlərinə mümkün qədər göz yumasan.

36 – Gərək övladlarına özünə inam hislərini aşılayasan. Bu həm dünyada, həm də axirətdə uğur qazanmağın əsas səbəblərindəndir.

37 – Valideyn övladına məsuliyyət daşımaq hissini aşılamalıdır.

38 – Gərək övladına qərar vermək bacarığını öyrədəsən. Hətta onun verdiyi qərarlar səhv olsa belə bu onun müstəqil olmasına gətirib çıxaracaq. Əbəs yerə deməyiblər ki, hər bir uğursuzluqda bir müvəffəqiyyət toxumu vardır. Bir şərtlə ki, bu, Allahın haram buyurduğu məsələlərdə olmasın.

39 – Uşaqlar üzləşdikləri bir çox problemləri özləri həll etmək iqtidarındadırlar. Onlara insanları dinləyib onlarla dialoq qurmağı öyrət.

40 – Valideyn öz səhvini dərhal etiraf etməlidir. Bu da uşaqlarda onların xəta etdikləri zaman xətalarını etiraf etmələrinə və səhvlərini düzəltmələrinə gətirib çıxaracaq.

41 – Övladlarımızın özlərinin bir kəraməti vardır və bu kəraməti onların əllərindən almaq və onlara zülm etmək olmaz. Çünki hər bir zülm Qiyamət günü zülmətlərə çevriləcəkdir.

42 – Övladlar səhv etdiklərində valideyn onlara həmin əməlin səhv olduğunu və bu zaman necə müamələ etməyin yollarını da öyrətməlidir. Əksər hallarda uşaqlar bilməyərəkdən səhvə yol verirlər. Yəqin ki, özümüzün də uşaq ikən nə qədər səhvlər etdiyimiz gizli deyil.

43 – Gərək uşaqları öz həyatlarını sürmək üçün sərbəst buraxaq. Gərək onlar bu sərbəstliklə öz problemləri ilə mübarizə aparsınlar, səhvlərindən öyrənsinlər, özlərinə güvənsinlər, öz işlərini özləri görsünlər, özləri öz yollarını təyin etsinlər. Biz yalnız şəriətin buyuruqlarını onlara bildirməliyik. Bununla övladlarda özlərinə etimad yaranacaqdır.

44 – Övladları öyüb, onları tərifləmək onlar üçün çox lazımdır. Bunun da bir miqdarı var ki, gərək həddini biləsən. Yaşı və dərəcəni də tez–tez qeyd etmək labüddür. Valideyn həmçinin həm maddi stimulları, həm də mənəvi cəhətdən olan tərifləri artırmalıdır.

45 – Qəlbinlə övladlarınla birgə yaşa, onların əziyyətlərinə tab gətir.

46 – Gərək övladlarını başa düşəsən və onlara mücadilə etmədən və pis söz söyləmədən ehtiram göstərəsən.

47 – Valideynlər üçün əsas zəfər axirətdə olacaqdır.

48 – Övladlarını tərbiyə etdiyin zaman hər bir söz və əməlin təsir və aqibətini düşün.

49 – Övladları iradəli olmağa sövq et.

50 – Çalış ki, övladlarına çoxlu suallar verərək onlardan düzgün cavab alasan.

51 – Səhvlərin olması və düzü səhvdən seçməmək övladlarda təbii haldır. Bu, uşaq böyüdükcə azalır.

52 – Gərək səmimi olaq və öz fikirlərimizi övladlarla bölüşək. Çünki bu valideynlə övlad arasında inamın yaranmasına və Allahın izni ilə nəfsin sakit olması ilə nəticələnəcəkdir.

53 – Gərək valideynlər nalayiq sözlər işlətməkdən çəkinsinlər, çünki övladlar valideynlərini təqlid edirlər.

54 – Lütfkarlıq, mərhəmət, yumşaq rəftar, qayğı, sevgi və övlad üçün pul xərcləmək onun könlünü ələ almaq üçün bir vasitədir. Bununla sən onlara təsir edə bilərsən və onlar buna ən layiqli olanlardır.

55 – Övladların sevgini başqalarında axtarmamışdan öncə onlara bunu bəxş et. Ola bilsin ki , bunun olmaması onlara pis təsir etsin.

56 – Mümkün qədər övladlara xas olan məsələlərə müdaxilə etməkdən çəkin.

57 – Gərək övladlar ağlamaqla öz istəklərinə nail olmağa çalışmasınlar.

58 – Sözə baxmamaq, inadkarlıq, yalan danışmaq uşaqlarda beş yaşınadək ola bilər.

59 – Boş vaxt və ya təklik inadkarlığa səbəb ola bilər. Valideyn uşaqları yayındıracaq və onlara fayda verə biləcək oyun və işlərlə onların başını qatmağı bacarmalıdır. Övladların yaxşı dostlarının olması onlar üçün çox faydalıdır.

60 – Valideyn övladlarının təfəkkür bacarıqlarını və əsaslı dialoq aparmalarını inkişaf etdirməlidir.

61 – Uşaqlarının böyüdüyünü düşünüb onlara qarşı bəslədiyin sevgi hisslərini izhara çıxarmaqdan utanma.

62 – Uşaqların elm və təfəkkürlərinin müsbət məcrada artması üçün lazımi mühüt və avadanlıqlar təşkil olunmalıdır.

63 – Yeniyetmə təbii olaraq dinə meylli olur. Din Allahın köməyi ilə fərqli tərbiyənin möhkəmlənməsinə səbəb olur.

64 – Yeniyetmə övladlarının özlərinə məxsus sirlərinin olması təbiidir.

65 – Təsəvvür et ki, övladların səninlə yaşadıqları evi tərk edərək ailə həyatı qurublar və onlardan yalnız xoş xatirələr qalmışdır. Bunu düşündükdən sonra onlarla birlikdə olduğun vaxtlardan həzz almağa çalış.

66 – Övladlarının səninlə nə cür münasibətdə olmalarını istəyirsənsə, onlarla həmin cür davran.

67 – Övladlarının müstəqilliklərinə məhdudiyyətlər qoyma, çünki bu onlarda xoşagəlməz xüsusiyyətlərin yaranmasına gətirib çıxarır.

68 – Gərək övladlarınla olan münasibətlərin qarşılıqlı etimada və yaxşı zənnə əsaslansın.

69 – Çalış evini mübahisə məkanına çevirmə, qoy sənin evin sülh, əmin–amanlıq, mərhəmət və şəfqət yeri olsun.

70 – Bil ki, uşaqlar sevgi, ehtiram, diqqət və qayğıya möhtacdırlar.

71 – Uşaqlar arasındakı mübahisə onların bir-birilərinə xəsarət yetirmələrinə gətirib çıxarmadığı müddətdə özündən çıxma, çünki ola bilsin ki, bu rahatsızlığa səbəb olsa da faydalı olsun.

72 – Hər bir söz və əməldə bütün övladlar arasında hər zaman ədalətli mövqedə olmaq vəfalı valideynlərin simalarındandır.

73 – Övladlarınla oturub söhbət etməkdən, onlarla məsləhətləşməkdən, onların fikirlərini qəbul etməkdən, onlara ehtiram göstərməkdən həzz al, bu onlarda etimadı artırmış, həyatda qarşılaşdıqları gərginlikləri azaltmış olur.

74 – Nə olursa olsun övladlarını bir–biri ilə müqayisə etməkdən çəkin.

75 – Hədiyyə vermək, üzr istəmək və səhv etdikdə təəssüfünü bildirməklə uşaqlarının arasında məhəbbət yarat.

76 – Uşaqlardakı qorxu hissi sonradan valideynlər, qardaş-bacılar, qohum-əqraba, cəmiyyət, dostlar və informasiya vasitələri vasitəsilə yaranır.

77 – Ola bilsin ki, özünü bəyənmənin arxasında bir sıra səhv cəhətlər də olsun.

78 – Mənfi tənqid səhvi başa düşməyə, xəcalət çəkməyə və özünə arxayın olmamağa gətirib çıxarır.

79 – Uşaqların özlərinə qiymət vermələri onların valideynlərinin onlara diqqət verib qayğı göstərmələri ilə bilavasitə əlaqəlidir.

80 – Uşaqlar qeyri kamil məxluqlardır. Odur ki, övladlarınla olan əlaqələrinin dostluq səviyyəsində olması zəruridir. Bu da yalnız dialoq, qarşılıqlı anlama və ehtiram, eşidib qəbul etməklə, əmr və qadağalardan çəkinməklə olur. Bu tərbiyənin ən əsas sirlərindəndir.

81 – Baş verən hadisələrdən istifadə edərək uşaqların qəlbində əqidə toxumlarını əkmək lazımdır.

82 – Övladlarını başa sal ki, hər şeyin qaydası və həddi-hüdudu var.

83 – Övladlarına dost seçməkdə, onlara hörmət bəsləməkdə yardımçı ol. Onların dostları və onların ailələri ilə tanış ol .

84 – Valideynlərin dinə itaət etməmələri, sonradan uşaqlarda pis adətlərin yaranmasına gətirib çıxarır.

85 – Hidayət Allahın əlindədir, lakin insan səbəbləri aradan qaldırdığı müddətdə çox vaxt övladların tərbiyəsi müsbət məcrada gedir.

86 – Uşaqların sərbəst olmalarına çalış, onların səndən qorxduqlarına görə yalan danışmalarına və hiylə işlətmələrinə səbəbkar olma.

87 – Uşaqlara mənfi məktublar göndərmə, çünki bu onların həyatına mənfi təsir edir.

88 – Uşağın nazı ilə oynayıb onun hər istəyini yerinə yetirmək onun saymamazlıq etməsinə gətirib çıxarır.

89 – Uşağa qarşı kobudluq etmək onlarda qorxu və özünə inamın itməsinə gətirib çıxarır.

90 – Övladlar arsında ayrıseçkilik etmək onlarda kin, paxıllıq və intiqam hissləri oyadır.

91 – Valideynlər arasında baş verən mübahisələr övladlarda əqli pozğunluq, təhlil etmək bacarığının zəifləməsi, qorxu, rahatsızlıq, həyatdan həzz ala bilməməyə gətirib çıxarır. Ola bilsin ki, övladların arasında daha böyük düşmənçilik olsun.

92 – Gözəl tərbiyə yalnız sevgi ilə ola bilər. Uşaqlar onlara qarşı diqqət verənlərə maraq bəsləyirlər.

93 – Hər bir əxlaqi səhvin arxasında bir zehni təsəvvür durur. Çalış səhvin mənşəyini aydınlaşdırasan.

94 – Daha mühüm bir məsələ də ondan ibarətdir ki, gərək uşaqların etdikləri hərəkətlərinin mahiyyətlərini onlara çatdırasan ki, onlar başa düşünsünlər ki, əgər onlar başqa cür etmiş olsaydılar, bu daha yaxşı olardı.

95 – Öz problemlərinə başını qarışdıraraq övladlarının problemlərindən bixəbər olma.

96 – Tərbiyədə ataların analara qoşulması çox səmərəli ola bilər.

97 – Uşaqlarımıza yetərincə vaxt ayırmalıyıq və onların hiss və problemlərinə həmşərik olmalıyıq.

98 – Çalış uğur qazanmaq ideyasını uşağına yeridəsən ki, onlar yalnız müsbət işlərə diqqət versinlər.

99 – Çalış evdə olduğun zaman fikir və düşüncən yalnız övladlarında olsun. Bu valideyndə olan çox müsbət bir haldır.

100 – Övladlarının tam sənin kimi olmalarına çalışma, çünki bu onlardakı yaradıcılıq qabiliyyətinin yox olmasına gətirib çıxarır.

101 – Tərif və ya tənqid uşağın özünə deyil onun hərəkətlərinə olmalıdır.

102 – Uşaqlara həyatlarında verə biləcəyin ən böyük şey onların aralarında ədalət və sevgi ruhunu yaratmağındır. Uşaqların arasında ədlətli olmağa diqqət yetir.

103 – Övladlarını tərbiyə edərkən həm mərhəmət və həm də ciddilkdən istifadə edəsən)

104 – Deyirlər ki, uşaq tam nizam-intizamı yalnız on yaşından sonra oyrənir.

105 – Əfsuslar olsun ki, bəzi valideynlər övladlarına dünyəvi məsələlərə görə gülürlər.

106 – Övladlarımızın tələbatlarını almaqla bərabər onların səhvlərini elmi əsaslarla düzəltmək lazımdır.

107 – Deyirlər ki, 4–7 yaşlar arasında uşaqlardakı inadkarlıq təbiidir.

108 – Tərbiyədə yol verilən ən əsas mənfi xüsusiyyətlər tələsmək, həddən ziyadə hərislik və çox qorxmaqdır.

109 – Övladını cəzalandırarkən bunun səbəbini ona anlat və bunu onun xeyrinə etdiyini çatdır və onu sevdiyini bildir.

110 – Qəzəbləndikdə azca düşün, çünki sənin qəzəblənməyin övladına xeyir verməyəcək, əksinə sənə zərər verəcək və ola bilsin ki, onun asiliyini artırsın.

111 – Tərbiyə vermək çətin deyil, lakin bunun üçün çalışmaq, vaxt və pul sərf etmək, habelə niyyət etmək lazımdır.

112 – Cəza artdıqda onun uşağa təsiri azalır və ola bilsin ki, bu onun gələcəkdə inadkarlığını artırsın.

113 – Hər iki valideyn övladlarına tərbiyə vermək üçün razılığa gəlməlidirlər və ixtilaf etməməlidirlər.

114 – Çox zaman övladın yaxşı əməllərini mükafatlandırmaq lazımdır. Lakin bunu müxtəlif üsullarla etmək lazımdır ki, uşaq gördüyü işləri mənfəət naminə etməsin.

115 – Mükafat yaxşı cəhətlərin artması üçün verilməlidir ki, pis cəhətlər aradan qalxmış olsun.

116 – Səhv cəhətlər səbir və elmlə aydınlaşdırılmalı və uşağın şəxsiyyəti alçaldılmamalıdır.

117 – Bir uşağı digərlərinin yanında tənqid etmək olmaz.

118 – Uşaqlar bir işi layiqincə məsələn, vaxtında gördükdə onların bu işinə qiymət ver.

119 – Uşaqlar onları maraqlandıran və narahat edən hər bir şeyə diqqət verməyini istəyir.

120 – Nümunə göstərməklə biz uşaqlarımızda yaxşı cəhətlərin yaranmasına səbəbkar ola bilərik. Onlar bu nümunəni eşitdikləri, gördükləri və hiss etdikləri şeylərdən də öyrənə bilərlər.

121 – Biz uşaqlara etibar edib onların müəyyən işləri görə bildiklərinə əmin olduqdan sonra onlar da özü-özlərinə güvənə bilərlər.

122 – Uşaqlarımızla bəzi sirlərimizi paylaşmalı və onlarla məsləhətləşməliyik.

123 – Uşaq çox sevdiyi bir oyunla məşğul olduğu zaman mümkün qədər ona heç nə buyurma.

124 – Çalış uşağa birdən-birə çox şey buyurma.

125 – Bir çox problemlərin səbəbi valideynlərin əməlləri olur.

126 – Unutma ki, lütflə bir şeyi istəmək sərtliyə yol verməkdən daha təsirlidir.

127 – Uşaqlarını dinləyib onların səviyyəsinə enməyi öyrən.

128 – Bəzən uşağın hirslənməsinin səbəbi ya onun istəklərinin yerinə yetirilməməsi, ya səhhətindəki narahatlıq, ya istəyinə nail olmaq, ya da başqa bir səbəbə görədir. Səbəbi yaxşıca araşdır.

129 – Ola bilsin ki, uşaqların yeniyetməlik dövrü valideynlər üçün çox əziyyətli olsun. Bu zaman valideyn-

lər bu mərhələnin müvəqqəti olduğunu xatırlayaraq səbir və təmkin nümayiş etdirsinlər və hirslərini boğsunlar.

130 – Yadında saxla ki, uşaqları kortəbii olaraq itaətə məcbur etmək onların şəxsiyyətinə mənfi təsir edir və onları hiylə və yalana vadar edir, habelə onların özlərinə olan inamlarını azaldır.

131 – Gərək valideynlər övladlarını daim həvəsləndirsinlər.

132 – Tərbiyə gərək təbii olsun və riyakarlıqdan uzaq olsun.

133 – Uşaqlar üçün dostluq çox mühüm və zəruridir. Bu onların cəmiyyətə inteqrasiya olmalarına və zəkalarının artmasına gətirib çıxarır. Çalış övladların üçün yaxşı dostlar tapasan, çünki insan öz dostunun dinindədir.

134 – Gərək uşaqların üçün münasib yaşayış yeri, qonşu və məktəb seçəsən.

135 – Uşaqlarına bildirmədən onları nəzarətdə saxla.

136 – Övladlarına Allahın onları daim gördüyünü, eşitdiyini, gizlin və aşkarlarını bildiyini aşıla.

137 – Uşaqlara təşəbbüskar olmağı, səxavətli olmağı, məsuliyyət daşımağı və qərar verməyi öyrət.

138 – Uşaqlarına səsli kitabxana, münasib kitablar, təsirli hekayələr və məqsədli jurnallar təşkil et.

139 – Uşaqlarına pul verərəkən nə paxıllıq et, nə də həddini aş.

140 – Çalış uşaqların öz ağıllarını, görüb eşitdikləri mənfi işləri tənqid etməyə sərf etsinlər, söz gəzdirmədən uzaq olsunlar.

141 – Edə bilməyəcəyin işi uşaqlarına vəd vermə.

142 – Uşaqlarının edə bilməyəcəkləri işi onlara məcbur etmə.

143 – Uşaqlarının uşaq kimi yaşayıb yarada bilmələri üçün onlara vaxt ver.

144 – Uşaqları qorxulu film və hekayələrdən, habelə onlara mənfi təsir edə biləcək şeylərdən qoru.

145 – Ailə məsələlərində uşaqlarınla planlar qur.

146 – Çalış uşağına kin bəslədiyini ona hiss etdirməyəsən.

147 – Uşaqlarına plan qurmağı və hədəf yaratmağı öyrət, çünki ola bilsin ki, bu onların həyatlarını dəyişsin.

148 – Sənin danışdığın ifadələri uşağın təkrarladıqda bundan təəccüblənmə.

149 – Hər gün övladını mehribanca qucaqla.

150 – Uşaqlara yaxşı yolları öyrət. Bu onlardakı gərginliyi azaldıb Allahın izni ilə sakit olmağa gətirib çıxarar.

151 – Uşaqlarının sənin sözlərini birinci dəfədən öyrənəcəklərini düşünmə.

152 – Gününü övladınla küsülü vəziyyətdə yekunlaşdırma, bu onları çox yorur.

153 – Uşağına başa sal ki, yalnız özü özünü dəyişə bilər.

154 – Övladını olduğu kimi qəbul et, özünü də inkişaf etdir. Oxuyub dinlədikdən sonra özünü dəyiş, sonra da Allahın köməkliyi ilə övladını dəyiş.

155 – Övladlarına çoxlu təbəssüm et və onlara mükafat və gözəl tərbiyə verməkdən həzz al.

156 – Unutma ki, sən övladının həyatında ilk və mühüm bir müəllimsən.

157 – Övladların bir iş gördükdə onlara nəzarət et və onları həvəsləndir.

158 – Uşaqların daha çox danışdıqları sözlər və əməllər onların mühüm cəhətlərini sənə aydınlaşdırmış olur.

159 – Çalış dostlarına qarşı olan münasibətin övladlarına göstərdiyin münasibətdən yaxşı olmasın.

160 – Övladlarına özünümüdafiə hərəkətlərini öyrət.

161 – Məktəbin sənin əvəzinə hər şeyi edəcəyinə əmin olma.

162 – Övladların yüngül xəstəlindikdə və ya xəsarət aldıqda buna çox fikir vermə.

163 – Uşaqlarının Allahı yada salıb Ona şükür etmələrində yardımçı ol.

164 – Çalış həyata baxışların optimist olsun, çünki bu, övladların da mübariz olmalarına səbəb olur.

165 – Övladlarınla mehriban olub onlara daim gülümsəməyə çalış.

166 – Elə düşünmə ki, övladların daim sənin addımlarını təkrarlayacaq və səninlə eyni xüsusiyyətlərə malik olacaqlar.

167 – Çalış ki evində yatıb-durmaq üçün bir nizam-intizam yaradasan.

168 – Səncə atan daim səni danlasa bu sənə necə təsir edər?

169 – Çalış ki, bal arısıtək daim hər şeyin şirinini seçəsən. Uşaqlarının yaxşı keyfiyyətlərinə və müsbət cəhətlərinə diqqət yetir.

170 – Ailə üzvlərinin arasında əmin–aman bir mühit yarat və xəlvətdə onlar üçün dua et.

171 – Uşaqlarını onların xoşladığı ad və ləqəblərlə çağır.

172 – Uşaqlarınla onların daim maraqlandığı məsələlər ətrafında fikir mübadiləsi apar, haramlardan isə onları çəkindirməyə çalış.

173 – Sənin övladlarınla səmimi olmağın, onların da sənə qarşı səmimi olmağına səbəb olacaqdır.

174 – Övladların oynadıqda, şənləndikdə və kədərləndikdə onlarla həmşərik ol.

175 – Övladlarının nəfsi rahatlıqlarına və özlərinə qiymət vermələrinə nail ola bilsən bununla onlar Allahın izni ilə böyük bir xeyirə nail olmuş olacaqlar.

176 – Övladlarının düzgün yolda olmalarını və rahat həyat sürmələrini istəyirsənsə onlara düzgün əqidəni öyrət.

177 – Loğman surəsində Loğman öz övladına öyrətdiyi kimi sən də öz övladına öyrət.

178 – Nə qorxaqlıq ölümü gecikdirir, nə də şücaət və mərdlik onu tezləşdirir. Məşhur İslam alimi İbn Qeyyim demişdir: "Xoşbəxt olmaq hər bir qorxağa haramdır."

179 – Çox vaxt uşağın öz Rəbbinə və valideyninə olan münasibəti onun həddi–büluğ çağında necə sakit olacağından xəbər verir.

180 – Övladlarınla müamələ etmə üslublarına diqqət yetir ki, görəsən onların ona həqiqi təsiri varmı? Verdi-

yin tərbiyənin müsbət təsiri varmı? Ən yaxşı üsul budurmu?

181 – Allahın Kitabının və Peyğəmbərinin ﷺ sünnəsinin buyurduğu tərbiyə üsulları ən gözəl üsullardır. Gərək insanlar buna riayət etsinlər.

182 – Çalış xəta zamanı nə baş verə biləcəyi barədə övladlarınla məsləhətləşəsən. Belə məsləhətlər çox mühümdür.

183 – Ataların övladlarla pis münasibəti onların qorxub itaət etmələrinə səbəb olur. Lakin çox zaman onlar böyüdükdə həmin pis münasibətin təsirindən qorxaq, inadkar və valideynlərinə qarşı olmalarına səbəb olur.

184 – Övladlarına necə davranmağı, düzgünü səhvdən necə ayırmağı və necə düşünməyi öyrət.

185 – Övladlarının səhvlərinə göz yumma, əksinə onlara səhv etdikdə bunun cəzasına da dözməyi öyrəşdir.

186 – Övladlar həddi–büluğa çatdıqları zaman onların bədənlərində baş verən dəyişiklikləri (övrət yerinin tüklənməsi, sperma ifraz etmək, döşlərin inkişafı, aybaşı və s.) onlara başa salmaq valideynlərin məsuliyyətidir. Gərək valideynlər uşaqlara sadə formada və təfsilatına varmadan bu məsələləri anlatsın.

187 – Övladlarına başa sal ki, onların bədənləri yalnız onlara məxsusdur. Ehtiyac olduqda valideynlərdən başqa gərək heç kəs ona toxunmasın.

188 – Həddi–büluğ çağında uşaqlar qısa müddətdə sürətlə inkişaf edirlər. Ola bilsin ki, bəzi valideynlər buna təəccüblə yanaşsınlar, lakin bu təbii bir şeydir.

189 – Mübahisə etmək, özünü müstəqil kimi göstərmək, təkbaşına qərarlar vermək, belə məsələlərdə özündən çıxmaq, başqasının rəyini asanlıqla qəbul etməmək, hətta bəzən rədd etmək kimi xüsusiyyətlər həddibuluğ yaşında olan uşaqların xüsusiyyətlərindəndir.

190 – Bəzən yeniyetmələr həyatda uduzmaqlarından qorxaraq gələcəyi və həyatda necə mübarizə aparmağı barədə suallar verir.

191 – Yeniyetmələr öz hisslərini cilovlaya bilmirlər və bir şeyi istədikdə və ya bir şeydən xoşlanmadıqda hədlərini aşırlar.

192 – Bəzi həddi–büluğa çatanlar başqalarının onları başa düşmədiklərini, onların keçirdikləri hissləri dərk etmədiklərini düşünürlər. Bəzən belə yeniyetmələr valideynləri və başqaları ilə də razılaşmır, heç kimin onları başa düşmədiklərini bildirirlər. Belələri bəzən təkliyə üstünlük verirlər.

193 – Yeniyetmə çox vaxt özünü göstərməyə və varlığını sübut etməyə səy göstərir. Odur ki, gərək valideynlər bu hisslərə qarşı diqqətli olsunlar.

194 – Yeniyetmə öz enerjisindən istifadə etməklə varlığını sübut etmək istəyir. Odur ki, gərək ona münasib işlər tapşırmaq lazımdır. Uşaqlara heç bir şey tapşırmamaq düzgün deyil. Çünki belə olduqda onlar cəmiyyətdə edilməsi lazım olan işlərin öhdəsindən gələ bilmirlər.

195 – Yeniyetmənin qarşılaşdığı problemlər onlarla oturub yumşaq rəftarla, onları danlamamaqla və onlara sərbəst olmalarını hiss etdirməklə, dialoq qaydalarına

riayət etməklə, qulaq asmaqla həll olunmalıdır. Ona seçim etməyə imkan ver ki yaxşı ilə pisi ayırd edə bilsin. Onu çox danlama və ona çoxlu dua et.

196 – Ola bilsin ki, yeniyetmə bəzi əməlləri ilə müstəqil olduğunu göstərmək istəsin və başqaları ilə fərqli formada münasibət saxlamaq istəsin.

197 – Ola bilsin ki, yeniyetmə qısa vaxt ərzində nümunəvi olsun və başqalarını və ətrafında baş verən hadisələri tənqid etsin.

198 – Uşaqlar yeniyetmə çağında çoxlu dəyişikliklər dövrünü keçirlər. Əgər sən həmin dəyişiklikləri anlaya bilməsən müxtəlif problemlərlə üzləşə bilərsən. Ola bilsin ki, hətta övladını da itirəsən.

199 – Bəzən yeniyetmə başqalarına meydan oxuma, mübahisə etmə və başqalarına müxalif olma kimi əməllər də edir.

200 – Yeniyetmə öz zahiri görünüşünə fikir verir. Ola bilsin ki, o, həddi-buluğun əlamətləri əmələ gəldikdə zahiri görünüşünə görə pərişan olsun.

201 – Ola bilsin ki, yeniyetmə çox utancaq olsun və təkliyə və çox yatmağa üstünlük versin.

202 – Gərək valideynlər daim yeniyetmə övladlarına inandıqlarını və etibar etdiklərini bildirsinlər və desinlər ki, müstəqil olmaq onların haqlarıdır.

203 – Yeniyetməni heç nəyə məcbur etmə. Ondan yardım istə.

204 – Gərək valideynlər dəyişsinlər və yeniyetmə övladlarının ehtiyacları ilə tanış olsunlar.

205 – Yeniyetmə övladları birbaşa olmadan izlə.

206 – Dialoq və sakit danışıq aparmaq yeniyetmələrlə ən yaxşı münasibət hesab olunur.

207 – Gərək yeniyetməni tənqid edib ona istehza etməyəsən.

208 – Gərək yeniyetmələrə qadağa və əmrlər çox verməyəsən.

209 – Gərək yeniyetmə ilə münasubətin səmimi olsun və ikibaşlı danışmayasan.

210 – Övladlarının dostlarına hörmət et, onlara qarşı səxavətli olaraq onları evinə dəvət et.

211 – Sakit dialoq vasitəsilə övladlarının dostlarının yaxşı və pis cəhətləri barədə danışıq aparmaq olar.

212 – Yeniyetmələrin əmin–amanlığa, rahatlığa və arxayınlığa ehtiyacları var.

213 – Bəzən yeniyetmələr çox fikir etməklə qorxub səhvini dərk etdiyini bildirir.

214 – Övladlarının hisslərinə ağılla, sakit dialoq və ehtiramla yanaş.

215 – Cinsi məsələlər barədə sual verildikdə uşaqlarına ehtiyac duyulduğu qədər danış ki, suallarının cavabını başqa pis bir dostda axtarmasın.

216 – Uşağa sərbəstlik ver və onların hər xırda hərəkətlərinə nəzarət et.

217 – Qoy uşağın buraxdığı səhvlərinin əziyyətini özü çəksin.

218 –Uşağına ehtiram göstər, onunla lütflə davran. Araşdırıb incələmə üslubundan uzaq ol.

219 – Ona inandığını tam əmin et. Onu nəzakətlə dinlə və səhv etdikdə sərt olma. Ola bilsin ki, onun üzrləri olsun.

220 – Yeniyetmə övladlarınla dost kimi davran və daim onları sevdiyini bildir.

221 – Sufyan əs–Sövri demişdir: "Göz yumma gözəl xasiyyətdir. Bir şair demişdir:

Əgər hər bir əməlində danlasan ,
Dostun sənin danlamalarına tab gətirməz."

222 – Övladlar böyüdükdə valideynlərdən müstəqil olmağa ehtiyacları var.

223 – Yeniyetmələr çox sualı, çox danışmağı və çox nəsihəti sevmirlər.

224 – Bütün bu qeyd olunanlar Allahın kitabı və peyğəmbərinin ﷺ sünnəsinə müxalif olarsa rədd olunmalıdır.

Beləliklə bu kiçik risaləni də Allahın izni ilə tamamladıq. Onun hər biriniz üçün xeyirli olmasını Allahdan diləyir və sizlərə övlad tərbiyəsində səbir diləyirik. Bu əlbəttə çox məsuliyyətli və əziyyətli bir işdir. Bu iş həm də şərəfli bir işdir. Unutmayaq ki, biz müsəlman ümmətinin nümayəndələrini yetişdirir və onların tərbiyəsi ilə məşğuluq. Allah bu şərəfli işdə hamımıza yardımçi olsun. Allah hamımıza gözümüzün nuru olacaq əməlisaleh övladlar nəsib etsin. Allah bizləri dünya və axirətdə Öz razılığı ilə mükafatlandırsın!